**İnteqrasiya və əcnəbilər üzrə nümayəndənin**

İnteqrasiya və əcnəbilər üzrə nümayəndənin vəzifələri, başlıca, Konstitusiya Qanununun 3-cü maddəsinin 3-cü bəndindən və Sakson Konstitusiyasının 18-ci maddəsinin 3-cü bəndindən irəli gəlir ki, hər birində belə qeyd edilir:

“Heç kim cinsinə, əcdadına, irqinə, dilinə, ölkəsinə və mənşəyinə, əqidəsinə, dini və siyasi baxışlarına görə ayrı-seçkiliyə məruz qala bilməz və ya üstün tutula bilməz”.

İnteqrasiya və əcnəbilər üzrə nümayəndənin işinin məqsədi, yerli səviyyədə miqrasiya keçmişli insanların inteqrasiyasını irəlilətmək, həmçinin mövcud struktur və fərdi ayrı-seçkiliyin azaldılmasına kömək etməkdir.

İnteqrasiya və əcnəbilər üzrə nümayəndənin vəzifələrinə aşağıdakılar daxildir:

- Tədbirlər, seminarlar, media işi, kampaniyalar, məlumat və broşürlər vasitəsilə geniş ictimaiyyət və müvafiq sektorlar arasında miqrasiya keçmişli insanların inteqrasiyası haqqında məlumat sahibi olmalarını irəlilətmək
- Dövri vəziyyət hesabatının hazırlanması vasitəsilə, Dresdendə yaşayan miqrasiya keçmişli qadın və kişilərin real həyat vəziyyətini təhlil etmək
- Yeni layihələrə başlamaq və cəmiyyətdəki vəziyyəti dəyərləndirməklə, mövcud olan ayrı-seçkiliyin azaldılması və gələcəkdəkilərin qarşısını almaq
- Məşğulluq, sağlamlıq, valideynlik, ailə, təhsil, mədəniyyət, şəhərsalma, siyasət və s., və bütün sosial mühit məsələlərlə bağlı yerli qərarların qəbul edilməsində miqrasiya keçmişli insanlar üçün bərabər imkanların təmin edilməsi, o cümlədən
    - Müvafiq orqanlara təsir göstərməklə
    - İnteqrasiya və əcnəbilər şurası ilə əməkdaşlıq etməklə
    - İnteqrasiya siyasəti ilə əlaqəli məsələlər və tələbləri irəli sürməklə və
    - Şəhər şurasının layihələrini nəzərdən keçirmək və rəylər hazırlamaqla

- Şəhər şurasının üzvləri, işçi şurası, assosiasiyalar, klublar və təşkilatlarla əməkdaşlıq etmək
- Miqrasiya keçmişli insanların inteqrasiyası ilə əlaqəli ixtisaslaşdırılmış idarələrin işini müşayiət və nəzarət etmək
- Xüsusi hallarda məsləhət axtaran miqrasiya keçmişlı qadın və kişilər üçün ilkin məsləhət vermək
- Assosiasiyaların və təşəbbüslərin fəaliyyətini dəstəkləmək
- Qızlar və oğlanlarla mədəniyyətlərarası fəaliyyəti dəstəkləmək
- İnteqrasiya fəaliyyət planının icrası və yenilənməsini hazırlamaq və müşayiət etmək

(Landeshauptstadt Dresden, Integrations- und Ausländerbeauftragte, auslaenderbeauftragte@dresden.de, Stand: April 2023)